

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# Şərq qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 24 (23.436)

*7 fevral 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev həmin gün Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi-Müdafiə nazirinin birinci müavini Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Dövlətimizin başçısı İlham Əliyev fevralın 6-da Rusiya Federasiyasının TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana "Şərəf" ordenini təqdim edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün "Stadler Rail AG" şirkətinin Direktorlar Şurasının sədri Peter Şpuleri qəbul edib.



## Naxçıvan Muxtar Respublikasında 2020-ci ilin "İxrac ili" elan edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Muxtar respublikada qəbul edilmiş dövlət proqramlarının uğurla icrası sosial-iqtisadi inkişafı təmin etmiş, makroiqtisadi göstəricilər bütün parametrlər üzrə artmış, yeni sənaye müəssisələri yaradılmış və yerli istehsalın həcmi çoxalmışdır.

Naxçıvan Muxtar Respublikasında 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Kənd təsərrüfatı və xidmət sahələrində müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin fəaliyyətə başlaması, aqrar sənayenin inkişafının dəstəklənməsi istehsalçıların xarici bazarlara çıxışlarını və bu istiqamətdə təşviq tədbirlərinin artırılmasını zəruri etmişdir.

Həyata keçirilən uğurlu iqtisadi siyasət sənayeləşmə prosesini daha da sürətləndirmiş, rəqabətədavamlı və ixracyönlü məhsullar istehsal edən yeni müəssisələr yaradılmış, yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, muxtar respublikanın ixrac potensialının artırılması və ixraca dövlət dəstəyinin daha da gücləndirilməsi məqsədilə **qərara alıram:**

1. 2020-ci il Naxçıvan Muxtar Respublikasında "İxrac ili" elan edilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti "2020-ci ilin Naxçıvan Muxtar Respublikasında "İxrac ili" elan edilməsinə dair Tədbirlər Planı"nı hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 6 fevral 2020-ci il*

## Naxçıvanda sahibkarlarla görüş olmuşdur






Fevralın 6-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü olmuşdur.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Müasir dövrdə ölkələrin qarşısında duran əsas vəzifələrdən biri də sahibkarlığın inkişafıdır. Bu amilin vacibliyini daim ön planda saxlayan ümummilli liderimiz Heydər Əliyev deyirdi ki: ***"Sahibkarlığın inkişafı yeni iş yerləri yaradır, istehlak bazarına yeni məhsul növü çıxarır, vergi ödəyicilərinin sayını artırır, iqtisadi islahatların sosial bazası kimi əhalinin orta təbəqəsini formalaşdırır".*** Ulu öndərin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafı yeni mərhələyə yüksəlmişdir. Yaradılan əlverişli investisiya mühiti və göstərilən dövlət dəstəyi sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açmış, ümumi daxili məhsul istehsalında özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötmüşdür. Hazırda muxtar respublikada məşğul əhalinin 84 faizə yaxını özəl sektorda çalışır. Sənaye məhsulunun 95, tikintidə görülən işlərin 85, kənd təsərrüfatının isə 98 faizi özəl bölmənin payına düşür.



Qeyd olunmuşdur ki, son illər Naxçıvanda yüksək texnologiyalar əsasında maşınqayırma, kimya, mədənçıxarma, mebel, yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı təyinatlı çoxsaylı istehsal və xidmət sahələri yaradılmış, istehlak mallarına olan tələbatın ödənilməsində sahibkarlıq müəssisələrinin çəkisi artmışdır. Hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Muxtar respublikada əhalinin əksər hissəsinin kəndlərdə yaşaması bu sahə üzrə sahibkarlığın inkişafını zərurətə çevirmişdir. Real vəziyyət nəzərə alınaraq kənd təsərrüfatının kompleks inkişafı təmin edilmiş, sahibkarlar torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azad olunmuşlar. Bu gün torpaq mülkiyyətçiləri və fermerlər güzəştli şərtlərlə texnika və avadanlıqlarla, kredit, subsidiya və gübrə ilə təmin edilirlər. Mütərəqqi suvarma sistemləri qurulur, istehsal olunan məhsulların daxili bazarda rahat satışı, ixracı və dövlət tərəfindən qəbulu həyata keçirilir.

Ali Məclisin Sədri demişdir: Ailə təsərrüfatları kiçik və orta sahibkarlığın ilkin formasıdır. Ona görə də ötən il Naxçıvan Muxtar Respublikasında "Ailə təsərrüfatları ili" elan olunmuş, bu sahənin inkişafı ilə bağlı Tədbirlər Planı təsdiq edilmiş, ailə təsərrüfatlarına dövlət maliyyə dəstəyi artırılmış, 87 ailə təsərrüfatına 820 min manata yaxın güzəştli şərtlərlə kreditlər verilmişdir.

Aydın məsələdir ki, dövlət maliyyə dəstəyi olmadan özəl sektorun inkişafı mümkün deyil. Muxtar respublikada sahibkarların maliyyə resurslarına çıxış imkanlarının alçatan olması, xüsusilə də kreditlər üzrə düzgün biznes qiymətləndirilməsinin aparılması və aşağı faiz dərəcələrinin tətbiqi hər il yeni istehsal sahələrinin yaranmasına imkan verir. Ötən il muxtar respublikada sahibkarlara 29 milyon manatdan artıq kredit verilmiş, 84 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamışdır. Artan turizm potensialı muxtar respublikada sahibkarlığın bu istiqamətdə də inkişafına təkan vermişdir. Bütün yaşayış məntəqələrində müasir infrastrukturun yaradılması, yolların yenidən qurulması, sürətli internet təminatı, sabitlik, aparılan ekoloji tədbirlər, zəngin tarixi-mədəni irs turizm sahəsində sahibkarlıq fəaliyyətinə geniş imkanlar açmışdır.

Ali Məclisin Sədri demişdir: İstehsal olunan məhsulların ixrac potensialını yaratmadan özəl bölmənin inkişafından danışmaq mümkün deyil. Bu sahədə dövlət üzərinə düşən vəzifələri yerinə yetirir, sahibkarlara dəstək verir, ixracın təşviqi sahəsində ardıcıl tədbirlər görülür. Nəticə uğurludur. 10 ildən artıqdır ki, muxtar respublikanın xarici ticarət dövriyyəsində müsbət saldo qeydə alınır. 2019-cu ildə də muxtar respublikanın xarici ticarət dövriyyəsinin həcmi 497 milyon ABŞ dollarından çoxu olmuş, ticarət əməliyyatlarının 85 faizdən çoxu ixracın payına düşmüşdür. Muxtar respublikada şəffaf vergi

*Ardı 2-ci səhifədə*



sisteminin formalaşdırılması iqtisadi inkişafı təmin etməklə yanaşı, həm də sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açmışdır. Xüsusilə vergi inzibatçılığına yol verilməməsi, vergi nəzarətinin təkmilləşdirilməsi və uçotun düzgün aparılmasının nəticəsidir ki, 2019-cu ildə büdcə gəlirlərinin 84 faizə yaxını vergi daxilolmaları hesabına formalaşmışdır.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın təmin olunmasında və özəl bölmədə uğurlu nəticələrin qazanılmasında əməyi olanlara, eləcə də bütün sahibkarlara təşəkkürünü bildirərək demişdir ki, muxtar respublikada sahibkarlığın inkişafı üçün bütün tədbirlər görülmüşdür. Qalır yaradılan imkanlardan səmərəli istifadə etmək. Aid dövlət qurumları yerli xammala əsaslanan və tələbatı ödəyən istehsal sahələrinin yaradılması istiqamətindəki səylərini artırmalı, biznes-planlar düzgün hazırlanmalı, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrə yol verilməməlidir. Sahibkarlar da onlar üçün yaradılmış işgüzar mühitdən səmərəli istifadə etməli, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsal olunmalıdır.



“2020-ci il muxtar respublikamızda “İxrac ili” olduğu üçün çalışıb ona nail olmalıyıq ki, sahibkarlıq müəssisələrinin fəaliyyəti daha da genişlənsin, yeni müəssisələr yaradılsın, iş yerləri açılsın, istehsalın və ixracın həcmi artsın”, – deyən Ali Məclisin Sədri çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ***“Sahibkarlar təbəqəsi güclənməlidir. Çünki bu, ölkəmizin gələcəyidir”*** fikirləri ilə tamamlamışdır.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək 2019-cu ilin iqtisadi göstəriciləri barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri nəticəsində makroiqtisadi göstəricilər artmış, ümumi daxili məhsulun həcmi 2 milyard 839 milyon manatdan çox olmuşdur. Bu dövrdə sənayeləşmə uğurla davam etdirilmiş, sahibkarlıq subyektləri tərəfindən 75 istehsal və xidmət sahəsi istifadəyə verilmiş, 247 iş yeri açılmışdır. Hazırda muxtar respublikada ümumi daxili məhsulun tərkibində ilk yeri 27,6 faizlə sənaye tutmaqdadır. Ötən il sənaye məhsulunun həcmi artaraq 1 milyard 15 milyon manata yaxın olmuşdur. Muxtar respublikada sahibkarlığın inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən 29 milyon 16 min manatdan artıq kredit verilmişdir ki, bunun da 10 milyon 715 min 730 manatı Sahibkarlığın İnkişafı Fondunun payına düşmüşdür. Ötən il 13 elm və təhsil, 12 səhiyyə, 29 mədəniyyət müəssisəsi, 2 idman, 17 sosial qayğıya ehtiyacı olan ailələr üçün ev, 10 kənd və 12 xidmət mərkəzi tikilərək istifadəyə verilmişdir. Muxtar respublikada müasir və etibarlı yol-nəqliyyat infrastrukturu yaradılmış, bu sahənin davamlı inkişafı təmin olunmuş, 97,7 kilometr uzunluğunda avtomobil yolları çəkilmiş, 3 körpü tikilmiş, 3 körpü əsaslı təmir olunmuşdur. Dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına 3 soyuducu anbarın genişləndirilməsi, 4 soyuducu anbarın yaradılması başa çatdırılmışdır. Hazırda muxtar respublikada istehsal olunan yeyinti, tikinti, mebel və yüngül sənaye məhsulları 12 ölkəyə ixrac edilir. Tapdıq Əliyev özəl sektorun inkişafına göstərdiyi diqqət və qayğıya görə muxtar respublika sahibkarları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəisi Azər Nağıyev çıxış edərək demişdir ki, muxtar respublikadakı əlverişli biznes və investisiya mühiti sahibkarlığın inkişafına təkan vermiş, yeni sənaye sahələri yaradılmış, idxaldan asılılıq minimuma endirilmişdir. Sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə yaradılan şəraitin nəticəsidir ki, muxtar respublika üzrə 2019-cu ildə müəyyənləşdirilmiş vergi proqnozu 115,4 faiz icra edilmişdir. Özəl sektordan vergi daxilolmaları ümumi vergi daxilolmalarının 64,7 faizini təşkil etməklə, 2018-ci ilə nisbətən 4 milyon 153 min manat artıq olmuşdur ki, bu da muxtar respublikada özəl sektora göstərilən dövlət dəstəyinin bariz nümunəsidir. Əlverişli biznes şəraitinin yaradılmasının nəticəsidir ki, “bir pəncərə” qeydiyyat sistemi vasitəsilə 39 kommersiya hüquqi şəxs və 3599 fiziki şəxs sahibkarlıq fəaliyyəti üçün dövlət qeydiyyatına alınmışdır. Qeydiyyata alınan fərdi sahibkarların 73,5 faizi muxtar respublikanın rayonlarının payına düşmüşdür. Vergi Məcəlləsinə edilmiş dəyişikliklər investisiya fəaliyyətini təşviq etməklə mikro, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsində geniş imkanlar yaratmışdır. Tətbiq olunan vergi güzəştləri barədə məlumat verən Azər Nağıyev qarşıya qoyulan vəzifələrin icrasında səylərin artırılacağını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov bildirmişdir ki, sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər özəl sektorda uğurların qazanılmasına səbəb olmuş, sənayenin çoxşaxəli inkişafı təmin edilmişdir. 22 əsas və bir neçə törəmə şirkəti özündə birləşdirən “Cahan Holdinq” avtomobil və texniki xidməti, tütün və çay məmulatları istehsalı, tikinti materialları və istilik sistemləri istehsalı, ticarət, turizm, tikinti sahələrində nəzərəçarpacaq irəliləyişlər əldə etmişdir. Tanınmış brendlərin rəsmi nümayəndəsi kimi də fəaliyyət göstərən holdinq Türkiyədə, Rusiyada, İsveçrədə, Birləşmiş Ərəb Əmirliklərində və Çin Xalq Respublikasında öz filiallarını açaraq xarici bazarlarda təmsil olunur. Bütün bunlarla yanaşı, holdinq Bakı şəhərində, eləcə də Gəncə, Masallı, Quba, Goranboy və Şəkidə öz xidmət sahələrini yaratmışdır. Vüqar Abbasov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ailə Təsərrüfatları İctimai Birliyinin idarə heyətinin sədri Mübariz Şirəliyev çıxış edərək demişdir: “Muxtar respublikada göstərilən dövlət qayğısı nəticəsində yüzlərlə ailə təsərrüfatı fəaliyyətə başlamışdır. Yaradılan müasir infrastruktur, istehsal edilən kənd təsərrüfatı məhsullarının sərbəst bazara çıxarılması imkanlarının mövcudluğu insanların bu sahəyə marağını daha da artırmışdır. Mağaza və xidmət mərkəzlərində ailə təsərrüfatı məhsullarının satışının təşkili, eyni zamanda qapalı müəssisələrdə bu məhsullardan istifadə ailə təsərrüfatlarının inkişaf etdirilməsi sahəsində atılan əhəmiyyətli addımlardandır. Mövcud şəraitdən lazımınca yararlanaraq təsərrüfatımı ildən-ilə genişləndirərək 2019-cu ildə 14 hektar taxıl, 6 hektar kartof, 8 hektar qarğıdalı, 1 hektar soğan və tərəvəz, 1 hektar yonca əkini həyata keçirmişəm. Həmçinin toxumçuluq təsərrüfatı yaratmışıq. Ötən il təsərrüfatımızda 84 ton taxıl, 180 ton kartof, 72 ton qarğıdalı, 20 ton soğan və 20 ton tərəvəz istehsal etmişik. Bizi bu işlərin həyata keçirilməsinə ruhlandıran Ali Məclis Sədrinin ailə təsərrüfatlarına olan yüksək qayğısı və inamıdır. Bu da qarşımızda duran vəzifələrin həyata keçirilməsində məsuliyyətimizi daha da artırır”.





Bağçılıq təsərrüfatı ilə məşğul olan İsrafil Rəhimov demişdir: “Muxtar respublikada torpaq mülkiyyətçilərinə subsidiya və kreditlərin verilməsi, texnika ilə təminatın ilbəil yaxşılaşması və aqrar sektorun inkişafına yaradılan münbit şəraitdən bəhrələnərək 2019-cu ildə Babək rayonunun Sirab kəndində fermer təsərrüfatımızı yaratmışıq. Təsərrüfatımızın ümumi sahəsi 11,5 hektardır. İlk illərdə 4,5 hektar ərazidə badam bağı salmışıq. Bununla yanaşı, muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğun 2 min şitil gətirilmişdir. Təsərrüfatımızın fəaliyyətə başlaması əhalinin məşğulluğunun artırılmasında mühüm rol oynamışdır. Ailəmizin işçi qüvvəsindən əlavə mövsüm ərzində 5 kənd sakini də təsərrüfatda işlə təmin olunur. Göstərilən qayğıdan bəhrələnərək bu ildən bağçılıq təsərrüfatımızın genişləndirilməsinə başlamışıq. Bu günə qədər təsərrüfatımızın qurulmasını şəxsi vəsaitimiz hesabına həyata keçirmişik. 6 hektar badam bağının salınması üçün Sahibkarlığın İnkişafı Fonduna 25 min manat maliyyə dəstəyinin göstərilməsi üçün müraciət etmişik”. İsrafil Rəhimov muxtar respublikada ailə təsərrüfatlarının inkişafı üçün yaratdığı şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası təltiflərinin təqdimatı olmuşdur. Bildirilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 oktyabr və 25 dekabr tarixli sərəncamları ilə muxtar respublikanın kənd təsərrüfatı işçilərindən biri “Azərbaycan Respublikasının Əməkdar kənd təsərrüfatı işçisi” fəxri adı, biri 1-ci dərəcəli “Əmək” ordeni, ikisi 2-ci dərəcəli “Əmək” ordeni, ikisi 3-cü dərəcəli “Əmək” ordeni, dördü isə “Tərəqqi” medalı ilə təltif olunmuşlar. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 26 dekabr tarixli Sərəncamı ilə 3 nəfər “Naxçıvan Muxtar Respublikasının Əməkdar kənd təsərrüfatı işçisi” fəxri adı, 5 nəfər isə “Rəşadətli əməyə görə” medalı ilə təltif olunmuşlar.

Ali Məclisin Sədri orden, medal və fəxri adları, eləcə də “Rəşadətli əməyə görə” nişanını təqdim etmişdir.

“Azərbaycan Respublikasının Əməkdar kənd təsərrüfatı işçisi” fəxri adı ilə təltif olunan Rahət Hacıyev minnətdarlıq edərək demişdir: “Muxtar respublikada sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılmışdır. Subsidiyaların, güzəştli kreditlərin verilməsi, suvarma şəbəkələrinin qurulması, “Araz” Elm-İstehsalat Birliyinin, eləcə də Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsi üçün yeni inzibati binanın istifadəyə verilməsi kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində görülən mühüm işlərdir. Biz kənd təsərrüfatı işçiləri də yaradılan şəraitdən səmərəli istifadə edəcək, göstərilən etimadı layiqincə doğrultmağa çalışacağıq.

2-ci dərəcəli “Əmək” ordeni ilə təltif olunan Arif Cəfərov demişdir: Muxtar respublikada aqrar sahədə görülən işlər bol məhsul istehsal etməyə imkan verir. Kənd təsərrüfatı işçilərinə, fermerlərə, torpaq mülkiyyətçilərinə verilən məsləhətlər işin düzgün qurulmasının əsas şərtidir. Bu gün Naxçıvan bütün sahələrdə nümunədir. Abadlaşan kəndlər, salınan rahat yollar insanlara göstərilən qayğının ifadəsidir. Arif Cəfərov Ali Məclisin Sədrinə “Şərəf” ordeninin təqdim olunması münasibətilə təbriklərini çatdırmışdır.

Digər təltif olunanlar da əməklərinə verilən qiymətə görə minnətdarlıq etmişlər.

Sonra Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 12 sahibkara güzəştli kreditlərin çeklərini təqdim etmişdir. Bu kreditlər ətlik istiqamətində heyvandarlıq, damazlıq, arıçılıq və balın emalı sahələrinin, eləcə də arıçılıq məhsullarının qablaşdırılmasına və bağçılıq təsərrüfatının yaradılmasına sərf olunacaqdır.

Güzəştli kreditlə təmin olunanlardan Süleyman Yusifov minnətdarlıq edərək demişdir ki, muxtar respublikamızda sahibkarlara qayğı göstərilir. Ali Məclis Sədrinin iştirakı ilə keçirilən görüşlər, verilən tövsiyə və tapşırıqlar fəaliyyətimizin genişləndirilməsinə, yeni istehsal sahələrinin və sahibkarlıq subyektlərinin yaradılmasına stimul verir.

Tədbirdə 2019-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafından bəhs edən filmə baxış olmuşdur.

Ali Məclisin Sədri Naxçıvan Biznes Mərkəzində muxtar respublikada istehsal olunan məhsullardan ibarət sərgiyə və Naxçıvan Avtomobil Zavodunun istehsalı olan yeni model avtomobillərə baxmışdır.

Qeyd olunmuşdur ki, sərgi salonunda Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafını əks etdirən makroiqtisadi göstəricilər və istifadəyə verilən obyektlər haqqında stendlər, muxtar respublikanın sənaye və kənd təsərrüfatı sahələri xəritəsi qoyulmuşdur. Burada muxtar respublikada fəaliyyət göstərən 78 müəssisənin 273 növdə, 1669 çeşiddə, eləcə də 64 ailə təsərrüfatının 16 növdə, 168 çeşiddə məhsulu nümayiş olunur. Həmçinin mərkəzdə muxtar respublikada fəaliyyət göstərən sənətkarların, eyni zamanda məhkumların və qadınların əl işləri də sərgilənir.

Bildirilmişdir ki, Naxçıvan Avtomobil Zavodunda 6 çeşiddə yeni model avtomobil yığılır. “Avro 5” tələblərinə cavab verən, avtomatik sürət qutusu ilə təchiz olunmuş avtomobillər rahatlığı, keyfiyyəti və qənaətcilliyi ilə seçilir. Tələbata uyğun olaraq zavodun istehsal imkanlarının artırılması nəzərdə tutulur. Hazırda avtomobillərin nağd və kredit yolu ilə satışı həyata keçirilir.

Ali Məclisin Sədri muxtar respublikada istehsal olunan məhsulların çeşidinin, keyfiyyətinin və ixrac imkanlarının artırılması, ixrac olunan məhsullara vergi güzəştlərinin tətbiq edilməsi, ailə təsərrüfatlarının fəaliyyətlərinin dəstəklənməsi, daxili bazarın qorunması və yerli xammalla işləyən müəssisələrin yaradılması, xidmət sahələrinin fəaliyyəti ilə bağlı Tədbirlər Planının hazırlanması, Naxçıvan Avtomobil Zavodu tərəfindən ehtiyat hissələri təminatı və texniki xidmətin təşkili barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Naxçıvan və Lvov şəhərləri arasında əməkdaşlıq sazişi imzalanıb

Yanvarın 31-də Kiyevdə Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Birgə Komissiyanın 12-ci iclası keçirilib.

İclas çərçivəsində "Lvov Vilayəti Dövlət Administrasiyası (Ukrayna) və Naxçıvan Muxtar Respublikasının Naxçıvan Şəhər İcra Hakimiyyəti (Azərbaycan Respublikası) arasında əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. Sazişi Naxçıvan Muxtar Respublikasının Naxçıvan Şəhər İcra Hakimiyyəti adından ölkəmizin Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Azər Xudiyev və Ukrayna tərəfdən Lvov Vilayəti Dövlət Administrasiyası adından isə bu ölkənin Azərbaycandakı səfiri Vladislav Kanevski imzalayıb.

Sazişdə Naxçıvan və Lvov arasında iqtisadiyyat, ticarət, səhiyyə, təhsil, mədəniyyət və turizm sahələrində əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı işgüzar görüşlərin keçirilməsi və təcrübə mübadiləsinin aparılması nəzərdə tutulur.

**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyinin Naxçıvan**
**Muxtar Respublikasındakı İdarəsi**

## Vəzifələrin icrası diqqətdə saxlanılır

*Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, təsdiq olunmuş dövlət proqramları və tədbirlər planlarından irəli gələn vəzifələrin teleradiolarda icrasını 2020-ci ilin yanvar ayında da diqqətdə saxlamışdır.*

Yanvar ayında Naxçıvan Dövlət Televiziyasında və Radiosunda, "Naxçıvanın səsi" radiosunda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə istifadəyə verilən sosial obyektlərdən operativ materiallar hazırlanmışdır. Həmin materialların təhlili monitorinq nəticələrində qeyd olunmuşdur.

Şura mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin fəaliyyətini təhlil etmiş, muxtar respublikanın kütləvi informasiya vasitələrilə həmin mətbuat xidmətlərinin qarşılıqlı əməkdaşlığına dair hesabatlar hazırlamışdır.

Ötən ay Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası tərəfindən muxtar respublikada fəaliyyət göstərən teleradio yayımçılarının ədəbi dil normalarına riayət etməsi sahəsində 2020-ci ilin fevral-mart aylarında aparılacaq monitorinqlərin layihəsi hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Şura muxtar respublikada fəaliyyət göstərən teleradiolarda texniki və yaradıcılıq baxımından keyfiyyətin yüksəldilməsinə xüsusi diqqət göstərməklə yanaşı, həm də teleradioların monitoringini aparır. Yanvar ayının 13-də Naxçıvan Dövlət Televiziya və Radiosunda, yanvar ayının 31-də isə "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosunda yaradıcılıq müzakirələri təşkil edilib.

Şurada "Radiomәhsulların istehsalı, işlənməsi, qorunması, istifadə olunan texniki vasitələrə qoyulan tələblərlə bağlı Qaydalar" müzakirə edilmiş, həmin qaydalara texniki sahə üzrə mütəxəssislər tərəfindən baxılması və rəy bildirilməsi məqsədəuyğun hesab edilmişdir.

Tədbirlər planına uyğun olaraq şura sosial şəbəkələrdə Naxçıvanla bağlı yayılan məlumatların təhlilini də aparmış, muxtar respublikanın zəngin tarixi-mədəni irsi və müasir inkişafı ilə bağlı video və fotomaterialların, eyni zamanda xəbərlərin yayılmasında yaxından iştirak etmişdir. Bəhs edilən dövrdə şura sosial şəbəkələrdə Naxçıvanla bağlı 400-dək foto və video, həmçinin xəbər paylaşmışdır.

Şura tərəfindən həmin dövrdə sosial-iqtisadi, elm, təhsil və mədəniyyət sahələrində Naxçıvan Muxtar Respublikasında əldə edilən nailiyyətlər, burada aparılan infrastruktur quruculuğu, diyarımızın qədim tarixi abidələri, zəngin turizm potensialı ilə bağlı mərkəzi mətbuat orqanlarında 3 analitik, 13 reportaj yerləşdirilmişdir. Həmçinin Türkiyə və Şimali Kipr respublikalarının 6 qəzet və saytında Naxçıvan Muxtar Respublikasının tarixi, inkişafı və turizm potensialına həsr olunmuş məqalələr yayımlanmışdır.

***Naxçıvan Muxtar Respublikası***
***Televiziya və Radio Şurası***

## Qardaş ölkənin rektorları Naxçıvan Dövlət Universitetində olublar

***Qars Qafqaz Universitetinin rektoru, professor Hüsnü Kapı, Ağrı İbrahim Çeçen Universitetinin rektoru, professor Abdulhalik Karabulut Naxçıvan Dövlət Universitetində olublar.***



İkitərəfli görüşdə rektor Elbrus İsayev rəhbərlik etdiyi ali təhsil ocağı haqqında geniş məlumat verib. Universitetə qəbul olan əcnəbi tələbələrin siyahısında türkiyəli tələbələrin daha çox üstünlük təşkil etdiyini bildirən rektor bunun səbəbini dil, din birliyi, ortaq adət-ənənələrə sahib olmağımızla əlaqələndirib.

Görüşdə bütün sahələrdə ortaq layihələr reallaşdırmaq, konfranslar, simpoziumlar, elmi toplantılar təşkil etmək, müştərək elmi araşdırmalar aparmaq, tələbə-müəllim mübadiləsi, universitetlərarası idman yarışları həyata keçirmək məsələləri müzakirə edilib. Müxtəlif sahələrdə birgə fəaliyyət, tələbə təqaüdü proqramları, elmi əməkdaşlıqda magistr və doktorantura proqramları hazırlamaq əsas fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilib.

Qardaş Türkiyə universitetlərinin rektorları qarşılıqlı əlaqələrə toxunub, birgə əməkdaşlığın perspektivləri müzakirə edilib.

Universitetin İncəsənət fakültəsində olan qonaqlar Azərbaycan - Türkiyə dostluğunu özündə əks etdirən sərgiyə baxıb, konsert proqramını izləyiblər. Tibb fakültəsində isə qonaqlara məlumat verilib ki, 2019-cu ildə yenidən qurularaq istifadəyə verilən fakültə yüksək maddi-texniki baza ilə zənginləşdirilib. Tələbələrin burada müvafiq ixtisaslar üzrə həm nəzəri, həm də təcrübi dərsləri keçmələri üçün hər cür şərait mövcuddur. Bunun nəticəsidir ki, bu il fakültəyə qəbul olan 201 xarici tələbədən 153-ü Türkiyə Respublikasındandır.

Universitetin xəstəxanasında, Baytarlıq təbabəti ixtisasının binasında olan qonaqlar burada olan şəraitdən, yaradılan imkanlardan məmnunluqlarını ifadə ediblər. Onlara məlumat verilib ki, Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələrin nəzəri biliklərinin təcrübədə möhkəmlənməsində qardaş ölkənin Qars Qafqaz Universitetində keçirilən təcrübənin faydası əhəmiyyətli dərəcədədir.

**Səadət ƏLİYEVA**

## İpotekanın dövlət qeydiyyatına alınması və ləğvi ilə bağlı xidmət prosedurları elektron formada həyata keçirilir

Muxtar respublikamızda mövcud potensialdan səmərəli istifadə ilə sənaye və kənd təsərrüfatının inkişafının sürətləndirilməsi, əhalinin mənzil-məişət şəraitinin və rifah halının yaxşılaşdırılması daim diqqətdə saxlanılır, sosial məsələlərin həlli ilə bağlı mühüm addımlar atılır. Sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, vətəndaşların yaşayış sahələrinin ipoteka yolu ilə əldə edilməsi imkanlarının genişləndirilməsi isə daşınmaz əmlak bazarında aktivliyi və bununla bağlı əməliyyatların sayını artırır.

Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı onun ipotekası haqqında müqavilənin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasıdır. Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı və ləğvi, ipoteka predmeti olan daşınmaz əmlaka tutmanın yönəldilməsi haqqında bildirişin qeydə alınması və ləğvi, eləcə də daşınmaz əmlakın ipotekasının əlavə dövlət qeydiyyatı, sonrakı ipotekanın dövlət qeydiyyatı və ləğvi ilə bağlı altı elektron xidmət göstərilir. Xidmətlər vasitəsilə notarial qaydada təsdiqlənmiş ipoteka müqaviləsi əsasında daşınmaz əmlak üzərində yüklülüyün qeydiyyata alınması və ləğvi üçün müraciətlər qəbul edilir, elektron xidmət istifadəçisinə müraciətin qəbulu, işin icra tarixi barədə bildirişlər verilir. İşin icrasından imtina edildiyi hallarda bu barədə elektron xidmət istifadəçisi məlumatlandırılır.

Hüquqi və fiziki şəxslər Naxçıvan Muxtar Respublikasının "Elektron hökumət" portalına *(www.e-hokumet.nmr.az)* və xidmətin internet saytına *(www.emlak.nakhchivan.az)* daxil olaraq təqdim olunan xidmətlərdən yararlana bilərlər.

Qeyd edilən xidmətlər vasitəsilə əməliyyatların aparılması üçün müvafiq bölmədə yerləşdirilmiş ərizə forması elektron xidmət istifadəçisi tərəfindən doldurulmalı, şəxsiyyəti və mülkiyyət hüququnu təsdiq edən sənəd, istifadəçi hüquqi şəxs olduqda isə vəkil edilmiş şəxsin etibarnaməsi elektron variantda təqdim edilməlidir.

İpotekanın dövlət qeydiyyatı və ləğvi ərizənin daxil edildiyi gündən 3 iş günü müddətində aparılır. Birinci halda ipotekanın dövlət qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış hüquq sahibinə təqdim edilir və ya elektron imza ilə təsdiqlənmək "Elektron hökumət" portalında yerləşdiriləkək hüquq sahibinin bu üsulla əldə etməsi imkanı təmin olunur. İpotekanın dövlət qeydiyyatının ləğvi xidmətindən daxil olmuş müraciətin icrası nəticəsində isə ərizəçiyə daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatının ləğvinə dair bildiriş təqdim edilir. İpotekanın dövlət qeydiyyatı ipoteka saxlayanın ərizəsi və ya məhkəmənin qərarı əsasında ləğv edilir.

2019-cu il ərzində daşınmaz əmlakın dövlət reyestrində 672 ipoteka qeydiyyatı aparılıb ki, bunun da 52 faizi Naxçıvan şəhərinin, 48 faizi isə muxtar respublikanın digər yaşayış məntəqələrinin payına düşür. İpoteka krediti hesabına əldə edilmiş 112 mənzil, 11 fərdi yaşayış evi üzərində hüquqlar dövlət qeydiyyatına alınıb. 2018-ci illə müqayisədə ümumi ipoteka qeydiyyatı 54 faiz, ipoteka ilə əldə edilən əmlakların qeydiyyatının sayı 38 faiz artıb.

2019-cu ildə ipoteka kreditləşməsi vasitəsilə əldə edilən mənzillərin hər kvadratmetrinin orta qiyməti 750 manat təşkil edib. Əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də ipoteka krediti hesabına əsasən iki və üçotaqlı mənzillərin alınmasına üstünlük verilib.

***Naxçıvan Muxtar Respublikası***
***Daşınmaz Əmlak və Torpaq***
***Məsələləri üzrə Dövlət Xidmətinin***
***mətbuat xidməti***

## Mütaliə günün tələbidir

***Mütaliənin insan həyatındakı tarixi rolu danılmazdır. Eramızdan əvvəl dördüncü əsrdə Menandr belə demişdir: "Oxumağı bacaranlar ikiqat görürlər".***

Texnologiyanın inkişafı, internet, sosial şəbəkələrin imkanları hər gün müxtəlif yazıların, müəlliflərin, yeni-yeni imzaların inkişafına xidmət edir. Bu gözəldir, mədəni inkişafın bir qapısı da ola bilər. Lakin bütün danışa bilənlərin həm də yaza bilmə iddiası, ciddi ədəbiyyat oxucularının və əsl ədəbi tənqidçilərin azlığından qaynaqlanmırmı?!

İnformasiya bolluğu içərisində, zaman məhdudiyyətini də nəzərə alsaq, müasir gənclik, bəzən daha çox nəyi oxuyacağını tam aydın seçə bilmir. Və böyük tələbə auditoriyalarında çoxluq təşkil edən suallardan biri də "Biz nəyi oxuyaq?" dır. Bu suala Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "Oxunması zəruri olan kitabların Siyahısı", əslində, mükəmməl və dolğun bir cavab oldu. Ali təfəkkürlə seçilmiş, məhz gəncliyin şəxsiyyət kimi inkişafına xidmət edə biləcək əsərlər bu siyahıya böyük müdriklik və uzaqgörənliklə daxil edilmişdir.

Ədəbiyyatda belə bir deyim var: "Yazmağı bilmirsinizsə, yazmayın, oxumağı bilmirsinizsə, öyrənin!"

Oxumağı öyrənmək!.. Bir millətin və dövlətin gələcəyi onun ziyalı vətəndaşlarından asılıdır. Ziya isə ancaq oxuyaraq, öyrənərək qazanılır. Mütaliə ilə zənginləşən insan gələcəyin insanıdır. Yalnız o, kütlə arasında fərqlənə bilər.

Nəzərə alsaq ki, müasir ədəbiyyat interferensiyada daha güclü və daha oxunaqlıdır, o zaman müasir yazarların daha məsuliyyətli olması çox mühüm, vacib bir məsələdir. Çünki müasir ədəbiyyat ultramodern hesab olunur və birbaşa təsir gücünə malikdir. Bu isə müasir gənclikdən zəkasını idarə etməyi öyrənməyi tələb edir. Çağdaş yazarların öhdəsinə də məhz oxucunu maarifləndirəcək əsərlər yazmaq düşür.



Qədim şumerlərin "Təbiəti oxumaq" adlı əfsanəsini yada salmaq yerinə düşərdi. Varisini taxta hazırlayan hökmdar onu şəxsiyyət kimi yetişmək üçün böyük ustadın yanına göndərir. Ustad ilk dərs olaraq şagirdini meşəyə göndərir və tapşırır ki, bir il sonra qayıda bilər və eşitdiyi bütün səsləri danışmalıdır. Bir il sonra şagird geri qayıdır və eşitdiyi bütün səsləri – quşların nəğməsindən, yarpaqların xışıltısından, arıların vızıltısından və mehin pıçıltısından danışır. Ustad qane olmur və gənci yenidən meşəyə öyrənməyə göndərir. Meşəyə qayıdan gənc uzun müddət təklikdə təbiəti dinləyir, təfəkkürlə təbiətə fokuslandıqca onu daha aydın anlayır. Vədəsi tamam olanda ustadının yanına qayıdır, daha əvvəl eşitmədiyi səslərdən danışır: çiçək necə açır, kainat necə işıqlanır, qaranlıq işıqdan necə qorxur... təbiəti oxuduğunu anlayır. Ustad razılıqla başını tərpədir – eşidilməyəni eşitmək, təbiəti oxumaq ən böyük hünərdir, – deyir.

Oxumağı bacaranlar bəsirət gözü ilə görürlər. Müqəddəs kitabımız "Qurani-Kərim" də "Oxu, Yaradanın adı ilə oxu!" kəlamı ilə başlamırmı?!

Əgər ədəbi proses – yazmaq və oxumaq prosesi milli və bəşəri ənənələr üzərində təşəkkül tapırsa, deməli, hər bir yazı bəşəriyyətin tarixinə çevrilə bilər. Bu zaman ədəbi proses insanı – həvəskar yazan və ya peşəkar yazar millətin, bəşəriyyətin taleyi üçün məsuliyyət hissini unutmamalıdır. Bu mənada, Ali Məclis Sədrinin oxunması zəruri olan kitabların siyahısı ilə bağlı təsdiq etdiyi sərəncam diyarımızda fəaliyyət göstərən pedaqoji kollektivlərdən və Naxçıvan ədəbi mühitindən mütaliəni istiqamətləndirmək, yeni-yeni zəruri bədii ədəbiyyatların yazılmasına və təbliğinə səfərbər olmağı tələb edir. Artıq bu istiqamətdə aparılan çoxcəhətli işlər Naxçıvan gəncliyinə mütaliə mədəniyyətinin aşılanması, beləliklə də, gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılması baxımından öz bəhrəsini verməkdədir. Bu, eyni zamanda muxtar respublikada gənclərin milli-mənəvi tərbiyəsi, gələcək cəmiyyətə kamil şəxsiyyət kimi hazırlanmasına xidmət edən məqsədyönlü siyasətin aparıldığını bir daha təsdiq edir.

**Ruhəngiz ƏLİYEVA**
***Naxçıvan Müəllimlər İnstitutunun müəllimi***

*Maddi dəyərlərimizin bir parçası olan yaşayış evləri milli mədəniyyətimizin əsas struktur elementlərindən olaraq etnoloji araşdırmaların aktual məsələləri sırasındadır. Bu evlərin etnoqrafik baxımdan araşdırılmasının mühüm cəhətlərindən biri onların tiplərinin müəyyənləşdirilməsidir. Xalq yaşayış evi tiplərinin yaranmasında ərazinin təbii-coğrafi şəraiti, əhalinin təsərrüfat məşğuliyyəti, inşaat materialları, tikinti texnikası, ictimai həyat, ailə-məişət, eləcə də dünyagörüş və inanclar sistemi müəyyən rol oynayıb. Məhz bu amillərin təsiri ilə evlər müxtəlif tiplərdə tikilib, təbii mağaralardan (zağa, kaha, sığnaq, kühul) müasir yaşayış evlərinə kimi uzun bir tarixi təkamül prosesi keçib. Azərbaycan əhalisinin yaşayış evləri mahiyyətcə, məzmunca, istifadə olunan tikinti materiallarına görə bir-birindən o qədər də fərqlənməyib və bu prosesdə yüz illərdən gələn tikinti təcrübəsi, təsərrüfat məişəti, inşaat materialları mühüm rol oynayıb.*



**Etnoqrafiyamız**

# Tariximizin şahidi: *yaşayış evləri*

Azərbaycan xalq yaşayış evlərinin təsnifat baxımından öyrənilməsinin indiki səviyyəsini nəzərə almaqla onları aşağıdakı qruplara bölmək olar:

*1. Əhalinin həyat tərzinə görə:*
*1) oturaq əhaliyə məxsus daimi evlər;*
*2) elatlara məxsus müvəqqəti evlər;*
*2. İnşaat texnikası və tikinti materiallarına görə*
*3. Plan quruluşuna görə*
*4. Dam örtüyünün formasına görə.*

Etnoqrafik ədəbiyyatda xalq yaşayış evləri qaradam, möhrəli, kərpic, daş evlər (kürsülü), şirvani, tatı ev, ağ otaq, tənəbi ev, imarət, aynabəndli ev, malikanə və sair adlarla tanınır.

Azərbaycanda geniş yayılmış yaşayış evlərinin bir qismini möhrətipli evlər təşkil edib. Belə ev tipləri, Naxçıvanın, demək olar ki, hər bölgəsində geniş şəkildə yayılıb. Toplanmış etnoqrafik çöl materiallarına görə, möhrədən, əsasən, birmərtəbəli evlər tikiblər. Xalq arasında belə evlər "palçıq ev" və ya "möhrəli ev" adlanırdı. Etnoqrafik materiallar isə göstərir ki, möhrətipli yaşayış evləri bəzən 30-40 santimetr hündürlükdə çay daşından hörülmüş bünövrə üzərində, bəzən də bilavasitə torpaqdan başlayaraq tikilirdi. Möhrə divarların qoyulmasına xalq arasında "möhrə vurmaq" deyilirdi. Möhrə vurmaq üçün "möhrəkeş" adlanan üçbucaq formalı uzunsaplı alətdən və "şətə"dən istifadə olunurdu. Bu alətlərin köməyilə palçığı kəsib hamarlayır, onu divara vurur, sonra isə yonub düzəldirdilər. Möhrə divarların vurulması prosesi fasilələrlə davam etdirilirdi, həm də yuxarı qalxdıqca qalınlığı azalırdı. Əgər aşağı hissədəki qalınlıq bir metr idisə, baş möhrəyə (el arasında "sərmöhrə" deyilir) qədər qalınlıq 60 santimetr olurdu. Həddindən artıq möhkəm olan belə divarları sökmək xeyli çətinlik yaradırdı. İndi el arasında çətin sökülən divara "elə bil möhrədir" deyilir. Möhrə divar müəyyən hündürlüyə qaldırıldıqdan sonra üstünə ağac tirlər düzülür, sonra üzərinə qamış, onun üstündən isə torpaq verilirdi. Evin damı "balıq beli" adlanan iki maili mərkəzdən yanlara doğru hissədən düzəldilirdi ki, bu da yağış sularının yanlara axmasını təmin edirdi. Suyu buraxmaması üçün suvaq çatladıqdan sonra evin üstünə narın torpaq (yol torpağı) verirdilər. Onun üstündən isə duz səpilirdi ki, ot göyərməsin. Ordubad bölgəsində evin üstünü dam daşı ilə bərkidirdilər.

Əsasən, şəhər və şəhərtipli qəsəbələr üçün səciyyəvi olmuş evlərdən biri də zirzəmili evlərdir. Bir qayda olaraq imarəttipli daş evlər zirzəmili tikilirdi. Zirzəmidən təsərrüfat məqsədilə, ən çox isə anbar kimi istifadə edilirdi. Belə evlərin aşağı hissəsi, zirzəmisi yer səviyyəsindən 2-2,5 metrə qədər hündürlükdə olurdu.

XIX-XX əsrlərdə başqa bir ev tipi isə "kürsülü" evlər olub. Yəni ev yer səviyyəsindən 1 metrə qədər hörüldükdən sonra içərisi torpaqla doldurulurdu. Belə evlərin qabağında çardaq düzəldilirdi. Kürsülü evlər daş və çiy kərpicdən tikilərdi.





Naxçıvanda istər şəhər yerlərində, istərsə də kəndlərdə geniş yayılmış yaşayış evlərindən biri də qaradamlardır. Tanınmış dramaturq nasir Süleyman Sani Axundov əsərlərinin birində qaradam haqqında belə məlumat verib: "Qaradamlar qışda çox isti olur. Necə də olmasın! Dərin quyu kimi yerin içinə girən damlara ortadan bir baca qoyub üstünə bir metrə qədər qalın torpaq tökürlər. Bu ağırlığa davam gətirməsi üçün torpaq pillələr qazırlar. Onun üstünü örtürlər. Buna dəhliz deyirlər. Babalarımızın bu köhnə "imarət"inə nədən "qara" adı verildiyini bilirsinizmi? İki səbəbdən: biri üstünə tökülən qara torpaqdan, o biri tüstüdən, içərisi hislənib qurum tutaraq qaralmağından".

Burada diqqətimizi çəkən məsələlərdən biri qaradamın yerin altında olması idi. Naxçıvandan topladığımız etnoqrafik materiallara görə isə burada qaradamların digər bölgələrdən fərqli cəhətləri ondan ibarətdir ki, bu bölgədəki qaradamlar yerüstü, həm də möhrədən və ya daşdan tikilirdi. Diyarımızda yeraltı qaradamlara çox az təsadüf olunub. Qaradamın ortasında təndir qoyulardı. Qışda təndir yandırılar, bəzən günlük çörək və ya xörək bişirilər, sonra isə üzərinə kürsü qoyulardı. Təndirin tüstüsünü çıxarmaq üçün damın üstündə baca qoyulsa da, tüstü divarları və dirəkləri qaraldardı. Gürcüstanda qaradamlar "dərbazi" adlanır. Araşdırmalar nəticəsində məlum olub ki, qaradamlar Qafqaz bölgəsində geniş yayılmasına baxmayaraq, onları təkcə bu bölgəyə şamil etmək olmaz. Bəzi tədqiqatçılar qaradamlara dünyanın bir çox ölkəsində – Hindistanda, Əfqanıstanda, Çində belə, rastlandığını qeyd edirlər.

XIX əsrin sonları və XX əsrin əvvəllərindən başlayaraq ölkədə yaranan inkişaf ilə əlaqədar olaraq əhalinin sosial-məişət şəraitində baş verən irəliləyişlər ənənəvi ev tiplərində bir sıra yeni elementlərin (ləmə, balaxana, tənəbi, eyvan, aynabənd, külafirəngi, mətbəx, dəhliz və sair) yaranmasına, beləliklə də yaşayış binasının kompleks halına düşməsinə səbəb olub. Belə ki, Azərbaycanın bəzi bölgələrində yaşayış evlərində kiçik otaqlardan birini mətbəx kimi ayırmaq ənənə halını alıb. Xörək-çörək bişirilən mətbəxin yaşayış otağından ayrılması ənənəvi inşaat mədəniyyəti tarixində mühüm mədəni irəliləyiş sayılırdı. Xörək və digər bişmişlərin qoxusunu mənzilin digər yerləşgələrindən təcrid etməyə imkan verən mətbəx Abşeronda "suaxan", Naxçıvanda isə "qəfəxana" və ya "qəvxana" adlanırdı. Bəzi tədqiqatçılar tərəfindən "qəfxana" ifadəsinin "qabxana" sözünün təhrif olunmuş forması olduğu ehtimal edilir. Qəfəxana iki otağın ortasında yerləşirdi, otaqların qapıları buraya açılırdı. Yəni qəfəxanadan hər iki otağa giriş olurdu. Qəfəxanalarda otaqlar buxarı vasitəsilə qızdırılırdı. Naxçıvanın sərt şaxtalı qış aylarında soyuq hava birbaşa otaqlara deyil, qəfəxanaya daxil olurdu. Yayda isə əksinə, isti hava birbaşa otaqlara daxil ola bilmirdi.

Yaşayış evlərinin quruluşuna və sair formalarına iqlim şəraitinin təsirinin də olduğunu görürük. Belə ki, evləri inşa edərkən, ilk növbədə, küləyin istiqaməti, qışda yağan qarın asanlıqla əriyib getməsi və sair məsələlərə diqqət yetirilirdi. Adətən, bu cür evlərin istiqaməti günçıxan tərəfə baxırdı. Tarixçi İsmayıl Zeynalov yazır ki, əgər evin yönümü qərbə tərəf baxırsa, Günəş zenit nöqtəsini keçdikdən sonra şüası qərb səmtə döyəcləyər və nəticədə, evin içi bürkü olardı. Bu həm də dini xarakter daşıyırdı, yəni evlər üzü qibləyə tikilirdi.

Yaşayış evlərindən bəhs edərkən tikinti materiallarına da toxunmaq lazımdır. Naxçıvan diyarında istehsal edilən tikinti materialları yaşayış evlərinin keyfiyyətinə və xarici görkəminə ciddi təsir göstərirdi və əsas tikinti materialları ağac, çaydaşı, əhəng, kərpic və gəc olub. Etnoqrafik materiallardan görünür ki, Azərbaycanın şəhərtipli yaşayış məskənlərində və bəzi kəndlərində, xüsusən bişmiş kərpicdən (qırmızı kərpic) geniş istifadə edilib. Bişmiş kərpic yerli gil materiallarından kustar sənətkarlıq karxanalarında hazırlanırdı. Bunun üçün gildən yoğurulmuş palçıq çiy kərpic formasında qəlibləndikdən sonra 5-6 gün açıq havada saxlanılır, daha sonra sobalarda bişirilirdi. Naxçıvan ərazisində bişmiş kərpicin qədimlərdən istifadə olunduğu, XIX-XX əsrlərdə isə burada onun istehsalının kütləvi hal aldığı məlumdur.

Bununla belə, Azərbaycanın Rusiya imperiyası tərəfindən işğal edilməsi bu qədim diyarda digər sahələr kimi, tikinti-memarlıq işlərinə də təsirsiz ötüşməyib. Naxçıvanda yaşayış evlərinin tikintisində müşahidə edilən bir yenilik əsrlərboyu xarakterik olan qapalılığın tədricən aradan qalxması idi. Bu dövrdə tikilən yaşayış evlərinin əksəriyyətinin fasadı küçəyə yönəldilməklə, pəncərələri daha böyük olub. Şair Müzəffər Nəsirli yazır ki, belə evlər etnoqrafik ədəbiyyatda "işıqlı" evlər, memarlıq ədəbiyyatında isə "ant" evlər adı ilə adlandırılıb. İşıqlı evlər tipinə aid edilən yaşayış evlərinin qarşısında əksər hallarda müxtəlif konstruksiyalı eyvan və ya artırmalar tikilirdi. Belə evlərin qapıları, əsasən, tək və ya qoşataylı, damların üstü torpaqla örtülmüş çardaqlı olurdu.

XX əsrin 60-70-ci illərindən başlayaraq günümüzədək Naxçıvan şəhərində yaşayış evlərinin dörd əsas tipini qeyd etmək olar: ənənəvi fərdi (həyət evləri), sovet dövründə inşa edilən çoxmənzilli evlər və müasir çoxmərtəbəli, malikanətipli şəxsi evlər. Müstəqillik əldə ediləndən sonra Naxçıvan şəhərində bir neçə hündürmərtəbəli yaşayış evləri salınmağa başlanıldı. Eyni zamanda köhnə sovet dönəmindən qalmış bir çox ictimai binalar yüksək səviyyədə əsaslı şəkildə təmir edilərək, binalardakı evlərin sahəsi dövlət vəsaiti hesabına artırılaraq istifadəyə verildi. Bu da sakinlərin mənzil sahəsinin genişlənməsini təmin etdi. Bir məsələni də vurğulayaq ki, bu binalar təmir edilərkən etnoloji baxımdan millilik qorunub saxlanılır. Müasir yaşayış binaları qədim diyarımızın hüsnünə xüsusi möhtəşəmlik, gözəllik bəxş edir.

**Asəf ORUCOV**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

# Seminarlar davam edir



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə ötən aydan start verilmiş "Abituriyent – 2020: Buraxılış və qəbul imtahanları, ixtisas seçimi" mövzusunda növbəti seminar fevralın 6-da Babək Rayon Təhsil Şöbəsinin əhatə etdiyi ümumtəhsil məktəblərinin XI siniflərində təhsil alan şagirdlər üçün keçirilib.*

Seminarda nazirliyin əməkdaşı Ayşən Əsgərova "2020-2021-ci tədris ili üçün bakalavriat səviyyəsi üzrə qəbul planı və 2020-ci ildə keçiriləcək qəbul imtahanının tarixləri", Naxçıvan Şəhər Təhsil Şöbəsinin baş məsləhətçisi Gülxanım Orucova "Buraxılış və qəbul imtahanlarına hazırlıq, ixtisas seçimi zamanı nələrə diqqət etməli", Naxçıvan şəhər 13 nömrəli tam orta məktəbin psixoloqu Nubar Abdullayeva "Abituriyentlərə imtahanqabağı psixoloji dəstək" mövzularında çıxış ediblər. Çıxışlarda abituriyentlərə keçiriləcək imtahanlara psixoloji cəhətdən hazır olmaları, imtahan dövrü nələrə diqqət etmələri ilə bağlı məlumatlar verilib.

Qeyd olunub ki, Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci ildə ali və orta ixtisas təhsili müəssisələrinə keçiriləcək qəbul imtahanlarının təqvimi təsdiq olunub. Naxçıvanda IX siniflər üçün buraxılış imtahanlarının birinci mərhələsi martın 1-də, ikinci mərhələsi iyunun 14-də, XI siniflər üzrə isə buraxılış imtahanları aprelin 5-də keçiriləcəkdir.

Tədbirdə abituriyentlərə buraxılış və qəbul imtahanlarına səmərəli hazırlıq üsulları, nəticələrə uyğun düzgün ixtisas seçiminin aparılması qaydası izah edilib, muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri haqqında məlumatlar verilib.

Sonda suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Culfa rayonunda seminar-müşavirə keçirilib

*Culfa Rayon İcra Hakimiyyətinin və Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin birgə təşkilatçılığı ilə Əbrəqunus kəndində seminar-müşavirə keçirilib.*

Tədbiri rayon İcra Hakimiyyətinin əməkdaşı Sərxan Hüseynov açaraq qeyd edib ki, bu ilin bol məhsulu üçün ilkin mərhələni təşkil edən torpağın lazımi dərinlikdə şumlanması, hamarlanması və digər aqrotexniki tədbirlər həmişə olduğu kimi, bu mövsümdə də gecikdirilmədən və aqrotexniki tələblərə uyğun ardıcıllıqla həyata keçirilib. Bu günədək rayonda 7467 hektar sahədə əkin aparılıb.

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Xaliq Abbasov çıxış edərək bildirib ki, dövlətin taxılçılığın inkişafı ilə bağlı gördüyü ardıcıl tədbirlərlə yanaşı, kənd təsərrüfatına azyararlı torpaqların əkin dövriyyəsinə qatılması və torpaqlardan səmərəli istifadə edilməsi, suvarma şəbəkələrinin genişləndirilməsi, məhsuldar toxum sortlarından istifadə edilməsi, intensiv becərmə üsullarına üstünlük verilməsinin nəticəsidir ki, muxtar respublikada dənli taxıl bitkilərinin istehsalı ilbəil artmaqdadır.

Vurğulanıb ki, əkin zamanı üzvi və mineral gübrələrin tətbiqi torpağın münbitliyini və bitkilərin məhsuldarlığını artırmaqda mühüm rol oynayır. Gübrələrin tətbiqində əsas məqsəd kənd təsərrüfatı bitkilərindən yüksək və keyfiyyətli məhsul əldə etməkdir.

Nazirliyin əməkdaşı Saməddin Əsgərov havaların mülayim keçməsi ilə əlaqədar taxıl sahələrində gəmiricilərə qarşı kimyəvi mübarizə tədbirlərinin zəruriliyi və aparılması qaydaları haqqında məlumat verib.

Sonda torpaq mülkiyyətçilərini maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

**İtmişdir**

Kazımov Abbas Məmmədcəfər oğlunun adına olan JN-288 inventar nömrəli, 10304018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 131